# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 250/2** **31 yanvar 2014-cü il**

**Beynəlxalq Audit Standartlarının və onların şərhinin Azərbaycan dilinə tərcüməsi və nəşri barədə**

Beynəlxalq Mühasiblər Federasyasından (İFAC) Auditorlar Palatasına daxil olmuş Beynəlxalq Audit Standartlarının və onların şərhinin ingilis dilindən Azərbaycan dilinə tərcüməsinə dair 2014-cü il 14 yanvar tarixli razılığın əldə olunması və Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının "Beynəlxalq audit standartlarının 2013-cü il üzrə versiyasının tərcüməsi" və "Beynəlxalq audit standartlarının 2013-cü il üzrə versiyasının şərhinin tərcüməsi" barədə 2.1.1. və 2.1.2 bəndlərinin icrası ilə əlaqədar Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məlumatını müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Beynəlxalq Audit Standartlarının və onların şərhinin 2013-cü il versiyasının ingilis dilindən Azərbaycan dilinə tərcüməsini və redaktəsini, ictimai müzakirəsini, nəşrini və tətbiqini həyata keçirmək məqsədilə aşağıdakı tərkibdə Redaksiya heyəti yaradılsın:

**Redaksiya heyətinin sədri:**

Vahid Novruzov - Auditorlar Palatasının sədri;

**Redaksiya heyətinin üzvləri:**

Fəxrəddin İsmayılov - Auditorlar Palatası sədrinin müavini;
Qəşəm Bayramov - Auditorlar Palatası Aparatının rəhbəri;
Anar Hacızadə - "PREMİER AUDİT KONSALTİNQ" MMC-nin direktoru;
Eldəniz İsgəndərov - sərbəst auditor;
Fuad Mustafayev - "Praysvoterhauskupers Audit Azərbaycan" MMC-nin meneceri;
İlqar Vəliyev - "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi. Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının rəhbəri, Palatanın Şura üzvü;
İslam Bayramov - "HLB Azərbaycan" MMC-nin direktoru;
Maarif Abbasov - Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi;

| | |
|---|---|
| Mövlan Paşayev | - "Praysvoterhauskupers Audit Azərbaycan" MMC-nin rəhbəri; |
| Namiq Abbaslı | - Sərbəst auditor, Palatanın Şura üzvü; |
| Nəcəf Talıbov | - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri; |
| Nuran Kərimov | - "Deloitte & Touche" MMC-nin direktoru; |
| Səbuhi Gülməmmədov | - Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi; |
| Vəli Rəhimov | - Maliyyə və təsərrüfat idarəsinin rəisi; |
| Vüqar Əliyev | - "KPMC Azərbaycan Limited" şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin idarəedici partnyoru; |
| Yunis Salayev | - "BDO Azərbaycan" MMC-nin idarəedici partnyoru |

2. Aparatın rəhbəri Q.Bayramova, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, Beynəlxalq Audit Standartlarının və onların şərhinin 2013-cü il versiyasının ingilis dilindən Azərbaycan dilinə tərcüməsini həyata keçirəcək şəxslərlə tərcümənin yüksək səviyyədə və nəzərdə tutulmuş müddətlərdə təmin edəcək iş qrafikini və tərcümənin şərtlərini razılaşdırıb 10 gün müddətində təqdim etsinlər.

3. Bu qərar ingilis dilinə də tərcümə edilməklə Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**